

## ƏBÜLFƏZ ƏHMƏD

### VARMI?

Mən oduna gizli yandım,
Hər an gülüm, səni andım.
Həsrətindən alovlandım
Qovuşmağa güman varmı?

Eşitmisən naz edərlər,
Bilirsənmi az edərlər.
Toy-nişanı yaz edərlər,
Bəs payıza güman varmı?

Öz eşqimlə ucalmışam,
Gələn gündən borc almışam.
Anam deyir qocalmışam,
Qocalara "aman" varmı?

Gəl, son qoyaq bu həsrətə
Könül verək xoş niyyətə.
Gəl çəkilək bir xəlvətə,
Görüm səndə "iman" varmı?

### MƏNİ

Vüsal üçün təşnə könül,
Nə olubdur yenə, könül?
Vurğun olub sənə könül,
Xəyalına gətir məni.

Dünya boyda bir istəyəm,
Bir həsrətli, gur istəyəm.
Bir çiçəyəm, dağ üstəyəm,
Bağçanızda bitir məni.

Gəlib gedər illər, aylar,
Gör çalınıb neçə toylar.
Dəli könlüm səni haylar,
Tənhalığım didir məni.

Neçə illər mən gözlədim,
Əziz adın əzizlədim.
İndi vaxtdır, nə gizlədim,
Vüsalına yetir məni.

Eşqi dəniz, bir ümmanam,
Vüsalından heç doymanam.
Gəlin gözlər mənim anam,
Həsrətin incidir məni...

### BAŞQASIDIR

Gəl yanıma, di gəl, yaxşı,
Gəl ki, tutsun könül naxşı.
Üz çevirib mənə, "yaxşı
Yol" deyəni başqasıdır.

İndi anladım suçumu,
Şeytan aldatdı içimi.
Bir vaxtı şəvə saçıma
Çal deyəni başqasıdır.

Dünya hədər, anlayıram,
Gələn gedər anlayıram.
"Yaxşı yolu" anlayıram,
"Qal" deyəni başqasıdır.

Gəlib çatdıq həddimizə,
Ayrı niyyət bəddi bizə.
Bir vaxt şümşad qəddimizə
"Dal" deyəni başqasıdır.

### SƏN DƏ

Görürsən çıxmışam yolunun üstə,
Arabir zülfünü ver yelə sən də.
Ürəyim titrəyir ətrindən ötrü,
Sizin tərəflərdən bir yel əsəndə.

Mənə necə qıydın, qoydun tamarzı,
Qalıbdır gözümdə əhdim-murazım.
Rəhm elə, gözümdə qalmasın arzum,
Nə olar, vüsala səy elə sən də.

Gəlsənə bir dələk həsrət çuxasın,
Gəl geyək vüsalın geniş yaxasın.
Nə lazım, könlümün evin yıxasan,
Şıltaq bir naz ilə, bir yellə, sən də.

## BƏXTİMİN ULDUZUNA

Gəl, əllərim toxunsun əllərinə,
Gəl, əllərim toxunsun tellərinə.

Gəl, gözlərim hey baxsın gözlərinə,
Görsün eşqin özü nə, gözləri nə?

Gəl, bu könül tapsın öz qərarını,
Özü versin sənə ixtiyarını.

Gəl, həsrətin şah damarın kəsək biz,
Həsrət yurda vüsal gülü əkək biz.

Gəl, sonraya saxlamayaq vüsalı,
Gəl, olmayaq Leyli-Məcnun misalı.

Bəs deyilmi yandırdığın, yaxdığın,
Bəs deyilmi yollarına baxdığım?

Rəva bilmə göz yaşımı dağıdım,
Gəl görüşək, həsrətimi dağıdım.

Gəl çəkilək bir kimsəsiz düzlərə,
Gəl, həsrəti, həsrət qoyaq bizlərə.

## OLARMI?

Gül camalın günəşimdi, ayımdı
Dişlərinə inci desəm olarmı?
Ayrı sözü deyəmmərəm, ayıbdı
Halın sorsam, sən necəsən, olarmı?

Sorağında ömrü, günü çürütdüm
Ürəyimin yağın yedim, əritdim.
Səni görcək göz yaşımı qurutdum
Bəs bu qədər incidəsən, olarmı?

Yaşa doldum qoca oldum, sən qarı,
Vədə gəldi, vaxt yetişdi tən yarı.
Sənsiz axı tapammıram qərarı,
Sən də məndən rəncidəsən, olarmı?

Əbülfəzə zülm eyləyən bəndəsən,
Haqqa tapın, niyə bizdən gendəsən?
Çox sevinmə, ucadasan, göydəsən
Xəyalların içindəsən, olarmı?

## OLAR

Yüz dəfə yaxanı çəksən kənara,
Qədərdə yazılan ay olar, olar.
Cəhdlərin hədərə gedəndən sonra,
Çəkilən əziyyət zay olar, olar.

Dünya geniş evdi, çoxdu qonağı,
Qonaqlı, qaralı dolu qucağı.
Qayıdıb gələn yox, etsin qınağı,
Desin o dünyada vay olar, olar.

Yoxdu bu dünyada bir ayrı dərdin,
Heç nəyə baxmayıb dövranı sürdün.
Yığıb dünya malın çəpərin hördün
Sonra kimlərəsə pay olar, olar.

Düzünü söyləyib düzdə qalanda,
Köç geri qayıtsa dalda qalanda.
Allahı unudub yalqız qalanda,
Dönüb Əbülfəzə tay olar, olar.

## HƏLƏ

Mən də bir həsrətəm, gələrəm dilə,
Mən də bir vüsaləm, gözlərəm hələ.
Mən də bir nəğməyəm oxunmamışam,
Qönçə dodaqlara toxunmamışam.
Mən də bir duyğuyam çox qərarsızam,
Mən də bir istəyəm, ixtiyarsızam.
Mən də bir arzumun bir anası tək,
Qoymaram onları qalsın yetim, tək.
Hansı taleyinsə o diləyidir,
O da öz eşqinin səmt küləyidir...